

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 171 (23.082)

12 sentyabr 2018-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Payız-qış mövsümünə hazırlıq diqqət mərkəzindədir



Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin tabe təşkilatları tərəfindən payız-qış mövsümünə hazırlıq, torpaq sahələrinin suvarma suyu ilə təmin olunması, əhalinin içməli su təchizatının yaxşılaşdırılması, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması üçün 2018-ci ilin avqust ayında da işlər davam etdirilmiş, sudan səmərəli istifadəyə nəzarət artırılmışdır. Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 30 milyon kubmetr suvarma suyu verilmiş, bunun müqabilində 25 min 655 hektar torpaq sahəsi suvarılmışdır.

Bu dövrdə 2 kilometr yeni içməli su xətti, 8 kilometr yeni suvarma xətti çəkilmiş, 4 kilometr mövcud içməli su xətti təmir-bərpa olunmuşdur. Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 2 min 244 metr uzunluğunda müxtəlif-diametrli boru xətti çəkilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində də işlər davam etdirilmişdir. Hazırda Şahbuz şəhər çirkab sutəmizləyici qurğuda avadanlıqlar quraşdırılır və ətrafda abadlıq işləri aparılır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti**

## Vəzifələr icra olunur

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi avqust ayında fəaliyyətini komitənin iş planına uyğun qurmuş, bu dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılmışdır. Aztəminatlı ailənin üzvü olan 80 qadınla əlaqə saxlanılaraq müvafiq söhbətlər aparılmış, onlardan 2-si bərbər-manikürçü, 1-i dərzi peşə kurslarına cəlb edilmiş, 3 qadının işlə təmin olunması üçün müvafiq məlumatlar Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı avqust ayında sağlamlıq imkanları məhdud 100 uşağın valideyni ilə maarifləndirici söhbət aparılmış, müvafiq kateqoriyadan olan uşaqlar haqqında məlumat bazası yaradılmış, 13 uşaq ümumtəhsil məktəblərinin birinci, 4-ü isə hazırlıq siniflərinə yönləndirilmişdir. Bu dövrdə aztəminatlı ailələrdən olan 45 uşağın Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil olunmuşdur.

"Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"na uyğun olaraq yaradılmış elektron məlumat bankına 488 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti**

## Sərnişindaşıma xidməti nümunəvi təşkil edilib

***Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti tərəfindən avqust ayında muxtar respublikada sərnişindaşıma fəaliyyəti göstərən avtobus və mikroavtobusların texniki müayinəsi keçirilmiş, 301 avtobusun qeydiyyatı aparılmışdır.***



Muxtar respublikanın bütün yaşayış məntəqələri marşrutla təmin edilmiş, 488 taksi əhaliyə xidmət göstərmişdir. Avtovağzalların payız-qış mövsümünə hazırlığı da diqqət mərkəzində saxlanılmış, şəhərlərarası və rayonlararası marşrut avtobuslarının qrafiki təkmilləşdirilmiş, istilik sistemlərinin yoxlanılaraq işlək vəziyyətə gətirilməsi üçün xidmətdə yaradılmış komissiya tərəfindən lazımi tədbirlər həyata keçirilmişdir.

Muzeylərdə taksi sürücülərinin seminar-məlumatlandırılması işinə avtobus sürücüləri də cəlb olunmuş, həftənin bir günü onların qrup şəklində muzeylərə ekskursiyaları təşkil edilmişdir. Avqust ayında İran İslam Respublikasından keçməklə Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə Naxçıvandan Bakıya 2501, Bakıdan Naxçıvana isə 2312 sərnişin daşınmışdır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti**

## Şərur rayonunda daha 3 məktəb yeni binada fəaliyyət göstərəcək

*Yeni təhsil ocaqları üçün binaların tikilməsi, mövcud məktəb binalarının yenidən qurulması istiqamətində görülən tədbirlər Şərur rayonunda da davam etdirilir.*



"Gəmiqaya" Tikinti Şirkəti Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, rayonun Kərimbəyli kəndində tamamilə yenidən qurulan, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 270 şagird yerlik məktəb binasının qarşıdan gələn dərs ilində istifadəyə verilməsi nəzərdə tutulub.

Rayonun İbadulla kəndində 522 şagird yerlik məktəb binasının da inşası sürətlə aparılır. Kosacan kəndində isə 234 şagird yerlik yeni məktəb binası Şərurun yeni məktəbləri siyahısında yer alacaq. Bu məktəblərin tikintisini Naxçıvan Muxtar Respublikası Şəhərsalma və Arxitektura Komitəsi Şərur Rayon İdarəsinin və "Artay" LTD Tikinti Şirkəti Naxçıvan filialının inşaatçıları aparırlar.

**Xəbərlər şöbəsi**

## Növbəti təkmilləşdirici təlimə start verilib



***Dünən Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində "Büdcə təşkilatlarında praktik mühasibatlıq" mövzusunda növbəti təkmilləşdirici təlim başlayıb.***

Təlimə mədəniyyət sahəsi üzrə çalışan 20 mühasibat işçisi dəvət olunub. Dörd gün ərzində keçiriləcək təlimdə büdcə təşkilatlarında smeta xərclərinin planlaşdırılması, xəzinə əməliyyatlarının təşkili və uçotu, vergi uçotunun təşkili, mühasibatlıq və maliyyə hesabatlarının hazırlanması kimi mövzulara yer verilib. Təlim muxtar respublikada maliyyə və mühasibatlıq sahəsində çalışan işçilərin peşə hazırlığının təkmilləşdirilməsi, ixtisaslarının artırılması və yenidən hazırlanması, təhsilin yekunlarına görə dinləyicilərin peşəkar biliklərinin və işgüzar keyfiyyətlərinin qiymətləndirilməsi məqsədi daşıyır.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin aparat rəhbəri Tural Şirəlizadə açaraq iştirakçılara keçiriləN təlimin mahiyyəti və gözlənilən nəticələrin əhəmiyyəti barədə məlumat verib.

Sonra Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 10 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında yaradılmış Maliyyə Tədris Mərkəzinin funksiyaları haqqında danışıb.

Bildirilib ki, mərkəzin əsas məqsədi maliyyə və mühasibat işi sahəsində çalışanların peşə hazırlığının təkmilləşdirilməsini təmin etməkdən ibarətdir. Görüləcək işlər muxtar respublikada yüksəkixtisaslı kadrların hazırlanması və maliyyə intizamının daha da gücləndirilməsinə töhfə verəcək.

Sonra gündəliyə uyğun olaraq təlimin ilk günündə Maliyyə Nazirliyinin Büdcə şöbəsinin baş məsləhətçisi Ramil Hüseynov "Büdcə təşkilatlarında smeta xərclərinin planlaşdırılması" mövzusunda iştirakçılara ətraflı məlumat verib. Növbəti günlərdə Maliyyə Nazirliyinin Xəzinə şöbəsinin sektor müdiri Ülvi Cəfərov, Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət şöbəsinin rəisi Zahid Qənbərov, Maliyyə Nazirliyi aparatının baş məsləhətçi-mühasibi Məmmədnağı Əkbərov müvafiq mövzularda təlim keçəcəklər.

Qeyd edək ki, təlimin yekununda tədris olunan mövzu ilə bağlı qiymətləndirmə mərhələsindən sonra iştirakçılara Maliyyə Tədris Mərkəzinin sertifikatları təqdim ediləcəkdir.

**Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti**

## Komandirlərin peşəkarlığı artırılır

***Naxçıvan Qarnizonunda tabor, divizion komandirləri və onların müavinləri ilə zabitlərin komandir hazırlığı sistemindən növbəti məşğələlər keçirilib.***



Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzindəki trenajorlarda zabitlərin atəş və sürücülük bacarıqları yoxlanılıb. Toplantının sonunda zabitlərdən fiziki və taktiki hazırlıq, topoqrafiya və rəhbər sənədlərin tələblərini bilmələri üzrə məqbullar götürülərək bilik, bacarıq və peşəkarlıqları qiymətləndirilib.

Bundan başqa, Əlahiddə Ümumqoşun Orduda müxtəlif ixtisaslar üzrə taqım komandirləri ilə keçirilən növbəti təlim-metodik toplantı başa çatıb. Taqım tərkibində məşğələlərin vahid metod üzrə keçirilməsinə nail olmaq məqsədilə hər bir ixtisasdan nümayiş, metodik və taktiki-sıra məşğələləri keçirilib.

Sonda taqım komandirlərindən məqbullar götürülərək toplantıya yekun vurulub.

**Nəriman NƏCƏFOV**

## "Naxçıvan" Universitetində keyfiyyətə nəzarət mərkəzi fəaliyyətə başlayacaq

*Bakı Biznes Universiteti Avropa Birliyinin "Erasmus Plus" proqramının maliyyə dəstəyi ilə "Azərbaycan universitetlərində keyfiyyətə təminat mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi" layihəsini uğurla həyata keçirməkdədir.*

Layihə çərçivəsində Azərbaycan Respublikasının 11 universitetinin keyfiyyətə nəzarət mərkəzinin və Beynəlxalq əlaqələr şöbəsinin nümayəndəsi bu günlərdə İsveçin Royal Texnologiya Universitetində və Uppsala Universitetində birhəftəlik təlimdə iştirak edib.

Təlimdə "Naxçıvan" Universitetini Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rəcəb Cəfərli və keyfiyyətə nəzarət bölməsinin mütəxəssisi Könül Babayeva təmsil ediblər. Onlar hər iki universitetin rəhbərləri ilə görüşlər keçirib, universitetlərarası əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində danışıqlar aparıblar.

Təlimdə iştirakçılar Azərbaycan universitetlərində keyfiyyətə nəzarət mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi məqsədilə hər iki universitetin 200 illik təcrübəsini dərindən öyrənməyə çalışıb, müqayisəli təhlillər apararaq Azərbaycan universitetlərində keyfiyyətə nəzarət mərkəzlərinin yaradılması sisteminin məzmun və strukturunu hazırlayıblar. İştirakçılar, eyni zamanda İsveçin milli təhsil sistemi, təhsildə keyfiyyətə nəzarət mexanizmi və qiymətləndirmə meyarları ilə də tanış olub, müvafiq sahə üzrə dövlət məsləhətçiləri ilə müzakirələr aparıblar.

Məlumat üçün onu da qeyd edək ki, universitetlərdə yaradılmış mərkəzlərin 2018-2019-cu tədris ilindən fəaliyyətə başlamaları nəzərdə tutulur.

**Nuray ƏSGƏROVA**

***Yay ilə qış arasında körpü olan qızılı payızın sərin nəfəsinin duyulduğu günlərin birində yolumuz abad kəndlərimiz sırasına qoşulan Şərur rayonunun Yengicə kəndinədir. Rayon mərkəzindən 2-3 kilometr aralıda yerləşən kəndə doğru irəlilədikcə təzəcə səngimiş yağışın Günəşin qızılı şüaları altında min bir rəngə çalan damcıları ağacların yarpaqları üzərində daha əsrarəngiz görünür. Təbiətin bu mənzərəsini seyr edə-edə kənd mərkəzinə çatdıq.***



*Yeniləşən kəndlərimiz*

## Qədimliyi və müasirliyi ilə gözoxşayan

# YENGİCƏ



Yengicə Şərur rayonunun orta əsrlərə aid edilən yaşayış məskənlərindən biridir. Kənddəki köhnə hamam, üstüörtülü çarşı, buzxana və karvansaray o dövrdə tikilib. Vaxtilə burada sənətkarlara məxsus xüsusi məhəllə də olub. Onlardan biri xalq arasında "Çölməkçilər küçəsi" adı ilə hələ də qalmaqdadır. Uzun illər boyu burada binaların tikintisində tağbənd və günbəzlərdən geniş istifadə olunub.

XIX əsrin sonu, XX əsrin əvvəllərində Yengicə Şərur-Dərələyəz qəzasında mühüm mərkəzlərdən biri və qəza inzibati-ərazi bölgüsünün mərkəzi kimi tanınıb. Mənbələrdə "Yenicə" (Yengicə) adına bir neçə nahiyədə rast gəlinir, o cümlədən Naxçıvan nahiyəsində "Yenicə" adlı kəndin mövcud olması ilə bağlı məlumatlar vardır. Şərur rayonundakı kənd adı isə 1728-ci ilə aid mənbədə qeydə alınıb və kəndin başqa adının "Qazançılı" olduğu göstərilib. Həmin dövrdə Qışlağat nahiyəsində də eyniadlı kənd olub.

"Yengicə" sözü Azərbaycan dilində "yenicə", "az əvvəl", türk dillərində "təzə", "yeni" anlamlarında işlənir və "oturaq kənddən bir qrup ailənin (yaxud bir nəslin) həmin kəndə məxsus icma torpağında yaratdığı məntəqə" nəzərdə tutulur.



Demək, "Yengicə" "yeni salınmış kənd", "icma torpağında yaranmış məntəqə" mənasındadır.

Bu yaşayış məntəqəsində gördüklərim müasir Azərbaycan kəndinin yeni modelini xatırladır. Muxtar respublikamızda aparılan quruculuq işlərindən öz payını alan bu kənd tamamilə yenidən qurulub. Yolboyunca aparılan yaşıllaşdırma işləri, palçıq hasarların daş divarlarla əvəzlənməsi, müasir işıqlandırma xətləri insanda xoş təəssürat yaradır.

2010-cu ildə kənddə 568 şagird yerlik, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan orta məktəb binası inşa edilərək istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev muxtar respublikaya səfəri zamanı təhsil ocağının açılış mərasimində iştirak edib, görülən işlərdən, yaradılan şəraitdən razı qaldığını bildirərək deyib: ***"Bu məktəb, əslində, kənd məktəbinə oxşamır. Çox əzəmətli, gözəl, geniş və işıqlı bir məktəbdir".***

Müasir layihə əsasında inşa olunan yeni təhsil ocağında şagirdlərin ixtiyarına 32 sinif otağı ilə bərabər, kitabxana, idman zalı da verilib. Müasir informasiya texnologiyalarına yiyələnmək üçün məktəbdə kompüter mərkəzi yaradılıb. Buradakı sinif otaqları, fənn kabinələri və laboratoriyalar lazımi avadanlıqlarla, mebel dəstləri ilə təmin olunub. Müəllimlərlə söhbət zamanı öyrəndik ki, Naxçıvanda ilk təhsil ocağı 1882-ci ildə burada açılıb. Bu xeyirxah işin təşəbbüskarı və təşkilatçısı dövrün maarifpərvər ziyalılarından olan Mirzə Ələkbər Süleymanov məktəb açılan il kənddə 11 uşağı təhsilə cəlb edib. 1884-cü ildə isə məktəb üçün ikisinifli bina inşa edilərək daha artıq uşağın təhsil almasına şərait yaradılıb. Qori Müəllimlər Seminariyasının məzunu olan bu ziyalı məktəbi yaratmaqla rayon əhalisinin maariflənməsinə kömək edib. Yengicə kənd orta məktəbi sovet dövründə də öz uğurları ilə tanınıb. Məktəbin məzunları sırasında dövlət, elm və mədəniyyət xadimləri, hüquqşünaslar, həkimlər, sənət adamları vardır. Azərbaycan elminin görkəmli nümayəndələri sayılan Asəf Nadirov, Həsən Şirəliyev, Yusif Seyidov kimi alimlər bir vaxtlar təhsillərini bu məktəbdə alıblar. Sosialist Əməyi Qəhrəmanı Tamam Əliyeva da bu təhsil ocağının məzunudur.

Yaşayış məntəqəsində yeni inşa edilən obyektlərdən biri də kənd mərkəzidir. İki mərtəbədən ibarət olan binanın birinci mərtəbəsində poçt bölməsi, elektrontipli 480 yerlik ATS, baytar məntəqəsi, kənd kitabxanası, ikinci mərtəbədə isə inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, YAP ərazi təşkilatı yerləşir. 70 yerlik iclas zalı da buradakı qurumların ixtiyarına verilib.

Vətənimizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların əziz xatirəsinə böyük ehtiramın nümunəsi kimi kənd mərkəzinin qarşısında "Heç kim unudulmur" adlı abidə kompleksi yaradılıb. Ağdərə kəndi uğrunda gedən döyüşlərdə şəhid olan Azərbaycanın Milli Qəhrəmanı Siyavuş Həsənovun büstü də burada ucaldılıb.

Öz görünüşü ilə bu yaşayış məntəqəsinə müasir görkəm verən ikimərtəbəli həkim ambulatoriyası kəndin mərkəzində yerləşir. Əvvəlki illərdə kənd sakinləri müayinə üçün rayon mərkəzinə üz tuturdularsa, artıq buna ehtiyac qalmayıb. Həkim ambulatoriyası yenitipli avadanlıqlarla təchiz olunub, 2 çarpayılıq palata xəstələrin ixtiyarına verilib. Həkim ambulatoriyasında 2 həkim, 4 tibb işçisi kənd sakinlərinə tibbi yardım göstərir. Bütün bunlarla yanaşı, kənddə ticarət obyektinin və məişət evinin inşası sakinlərin ürəyincədir.

İnzibati ərazi dairəsi üzrə nümayəndə vəzifəsini icra edən Şahin Əhmədovdan öyrənirik ki, kənddə 4600-dən çox sakin yaşayır və onlar 987 təsərrüfatda birləşiblər. Aqrar islahatlar zamanı sakinlərin istifadəsinə 407 hektar torpaq sahəsi verilib, 200 hektar torpaq bələdiyyə, 10 hektar torpaq dövlət mülkiyyətində saxlanılıb. Kənd adamları həmin torpaqlardan lazımi qaydada istifadə edir, məhsul bolluğu yaradırlar. Şahin Əhmədov onu da deyir ki, taxıl əkini sahələrini ilbəil genişləndiririk. Həm özümüzün çörəyə olan tələbatını ödəyir, həm də mal-qara üçün bol yem bazası yaradırıq. Tonlarla kartofumuz, sarımsaq və tərəvəzimiz olur. Əkin sahələrimizi üzvi gübrələrlə münbitləşdiririk. Suvarma suyuna ehtiyac isə kənd ərazisindəki 17 subartezian quyusundan və Arpaçaydan gətirilən suvarma kanalları vasitəsi ilə ödənilir.

Bu yaxınlarda isə Yengicə kəndində daha iki obyektin istifadəyə verilməsi kənd sakinlərində bayram əhval-ruhiyyəsi yaradıb.

Yengicə kəndinin içməli su şəbəkəsinin tikintisinə "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində 2018-ci ilin fevral ayında başlanılıb. Su Şərur şəhərinə gələn ana xətdən götürülərək paylayıcı şəbəkəyə verilir. Layihəyə uyğun olaraq ərazidə müxtəlifdiametrli plastik borularla 30,9 kilometr içməli su xətti çəkilib, 894 evə su verilərək sayğac quraşdırılıb, 4638 sakin fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunub. Su şəbəkəsinin üzərində 4 yanğın hidrantı, qəza zamanı məhəllə xətlərinin bağlanması üçün müxtəlifdiametrli 130 siyirtmə və 3 suboşaldıcı quraşdırılıb. "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin ikinci mərhələsi üzrə işlərin uğurla davam etdirilməsi nəticəsində Yengicədə içməli su şəbəkəsi qurulub, kənddə 30 kilometrdən artıq içməli su xətləri çəkilib, 900-ə yaxın su birləşməsi həyata keçirilib.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Yengicə kəndində içməli su şəbəkəsinin istifadəyə verilməsi ilə əlaqədar keçirilən açılış mərasimində deyib: ***"Bu gün Yengicə kəndinin 4 min 600-dən çox əhalisi keyfiyyətli içməli su ilə təmin olunub. Yaşayış məntəqələrinin içməli su təminatı mühüm məsələdir. Ona görə ki, su həyatdır, təmizlikdir, sağlamlıqdır. Əgər hansı yaşayış məntəqəsi təmiz içməli su ilə təmin olunursa, orada insanların sağlamlığı da qorunmuş olur".***

Yaşı yetmişi ötmüş Yengicə kənd sakini İlyas Kazımovla həmsöhbət olduq. O dedi ki, bu gün ulu öndərin siyasi xəttinə sədaqətin nəticəsində muxtar respublikanın bütün yaşayış məntəqələri kimi, Şərur rayonu da gündən-günə inkişaf edir, çiçəklənir. Hər il Şərurun müxtəlif kəndlərində yeni məktəb binaları, kənd və xidmət mərkəzləri istifadəyə verilir, rahat yollar, körpülər salınır. Rayonun böyük və qədim yaşayış məntəqəsi Yengicə kəndi də bu diqqət və qayğıdan kənarda qalmayıb. Ötən günlərdə kəndin yeni su şəbəkəsinin istifadəyə verilməsi, bütün evlərin ekoloji cəhətdən təmiz, saf su ilə təmin edilməsi dövlət qayğısının növbəti təzahürüdür. Həmkəndlilərim dövlətimizin bu qayğısını hər zaman dərin minnətdarlıqla xatırlayacaqlar.

Digər bir obyekt isə bərpa olunmuş kənd hamamıdır. On səkkizinci əsrdə tikilən Yengicə hamamının quruluşu səkkizguşəli formadadır, 2 iriölçülü günbəzi var. Qapı və bacaları bir qayda olaraq yuxarıda günbəzvarı formada tamamlanır. Giriş qapısı cənubdan olan hamam dörd salondan ibarətdir. Bu hamam iyirminci əsrin 80-ci illərinə qədər fəaliyyət göstərib. Vaxtilə biganəlik və laqeydlik üzündən, baxımsızlıq səbəbindən muxtar respublikamızın digər tarixi abidələri kimi, bu qədim hamam da dağılıb məhv olmaq təhlükəsi qarşısında idi.

Milli dəyərlərimizə, qədim tariximizə böyük qayğı və həssaslıqla yanaşan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə 2017-ci ilin mart ayından etibarən burada bərpa işlərinə başlanılıb və Yengicə hamamı öz tarixi görkəmi qorunub saxlanılmaqla həyata yeni vəsiqə alıb.

Hamamın ümumi sahəsi 420 kvadratmetrdir. Tarixi binada 7 sahə üzrə xidmət təşkil olunub. Burada 2 dərzi, qadın və kişi bərbəri, fotoqraf, papaqçı, çəkməçi və musiqi alətləri ustası olmaqla, 8 nəfər işlə təmin edilib. Bu tarixi abidə Ali Məclis Sədrinin tapşırığına əsasən "Muzey günləri" qrafikinə salınmaqla muxtar respublika ictimaiyyətinin ziyarət edəcəyi yeni maraqlı ünvanlardan birinə çevrilib.

Yengicə hamamının müasir görünüşü göz oxşayır. Burada olarkən kənd sakini, təqaüddə olan tarix müəllimi Vahid Məmmədovla görüşürük. O qeyd edir ki, Naxçıvan Muxtar Respublikasında 1996-cı ildən başlanan genişmiqyaslı abadlıq və quruculuq işləri sırasında tarix-mədəniyyət abidələrinə, ümumiyyətlə, keçmiş irsə diqqət və qayğı xüsusi yer tutur. Görülən məqsədyönlü və sistemli tədbirlər Şərur rayonunu da əhatə edib. Kənd ağsaqqalı vurğulayır ki, Ali Məclis Sədrinin tapşırığına əsasən Azərbaycan memarlığının gözəl nümunələrindən biri – Yengicə hamamı ilə bağlı elmi tədqiqatların aparılması və bu tarixi abidənin elmi əsaslarla bərpa olunması milli tarixi köklərə bağlılıq nümunəsidir. O, Yengicə hamamının əsaslı təmirdən və yenidənqurmadan sonra istifadəyə verilməsinin, üstəlik də, burada müxtəlif xidmət sahələri ilə məşğul olan sənətkarların fəaliyyəti üçün hərtərəfli şərait yaradılmasının hamının sevincinə səbəb olduğunu deyir və sakinlər adından minnətdarlığı bildirir.

*Muxtar respublikamızın digər bölgələri kimi, Yengicə kəndi də dövlətimizin diqqət və qayğısı sayəsində müasir Azərbaycan kəndinə çevrilib. Yaşayış məntəqəsində yaradılmış gözəlliklər kənd adamlarını yurd yerinə qəlbən bağlayıb.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı diqqət mərkəzində saxlanılır

*Muxtar diyarımızın şəhər, qəsəbə və kəndlərində yeni meyvə bağlarının salınması, mövcud bağlara aqrotexniki qulluq göstərilməsi davam etdirilir.*



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyindən verilən məlumata görə, cari ilin yaz əkini mövsümündə, ümumilikdə, kənd təsərrüfatı əkinləri üçün yararsız olan 223 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılıb, 15 hektar üzüm, 4 hektar badam bağı olmaqla, 90 hektar sahədə meyvə bağı, 133 hektar sahədə meşə massivi, yaşıllıq zolaqları salınıb. Yaşıllaşdırma tədbirlərində 222 mindən artıq meşə və meyvə tingləri, həmişəyaşıl ağaclar, bəzək və gül kolları əkilib.

Mövsüm ərzində, ümumilikdə, 155,1 hektar olmaqla, 37 hektar sahədə yaşıllıq zolaqları, meyvə bağları salınıb, 118,1 hektar sahədə ting və toxumla bərpa işləri görülüb.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq 27 hektar sahədə yeni meyvə bağı, 10 hektar sahədə üzüm bağı salınıb, 45 min 700 müxtəlif meyvə tingi əkilib.

## Taxılçılar sahələri payızlıq əkinə hazırlayırlar



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş və uğurla başa çatmış "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" aqrar sahənin inkişafına öz töhfəsini verib. Ötən müddət ərzində bu istiqamətdə qəbul edilmiş digər proqramlar kənd təsərrüfatının başqa sahələri kimi taxılçılığın inkişafında da əhəmiyyətli rol oynayıb.

Şahbuzlu taxılçılar da yaradılan şəraitdən səmərəli istifadə edirlər. Bunun nəticəsidir ki, onlar cari ilin məhsulu üçün ötən ilin payızında əkdikləri 1615 hektar sahədən 4 min 432 ton məhsul götürüblər. Həm əkilən sahələrdə, həm də məhsul istehsalında ötənilki göstəricilərlə müqayisədə bu il xeyli artım müşahidə olunub. İldən-ilə daha bol məhsul əldə edən torpaq mülkiyyətçiləri bir neçə ildir ki, rayon ərazisindəki dəmyə torpaq sahələrində də əkin keçirməyə başlayıblar.

Rayon dağlıq ərazidə yerləşdiyindən burada muxtar respublikamızın digər bölgələrindən fərqli olaraq payızlıq taxıl əkini daha tez həyata keçirilir. Mütəxəssislər burada sentyabr ayının 15-dən başlayaraq payızlıq taxıl səpini aparmağı məsləhət görürlər. Artıq torpaq mülkiyyətçiləri gələn ilin məhsulu üçün sahələrdə şum işinə başlayıblar. Hazırda Şahbuz şəhəri, Türkeş, Mahmudoba, Şahbuzkənd, Sələsüz və Daylaqlı kəndlərinin taxılçıları 100 hektardan çox sahədə şum qaldırıblar.

Yaxşı məhsul götürmək üçün əsas amillərin rayonlaşdırılmış taxıl sortlarından istifadə edilməsi, mineral və üzvi gübrələrin vaxtında və normada verilməsi olduğunu nəzərə alan torpaq mülkiyyətçiləri bu məsələləri də diqqətdə saxlayırlar.

**Xəbərlər şöbəsi**

*Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və daim qayğı ilə əhatə olunan təhsil sistemi bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda öz bəhrələrini verməkdədir. Son illər ən ucqar dağ kəndlərimizdəki müasir standartlara cavab verən məktəblərdən tutmuş şəhər məktəblərinədək hər birində ali məktəblərə qəbulun səviyyəsi ildən-ilə yüksəlir. Buna yeni tikilən və hərtərəfli şərait yaradılaraq istifadəyə verilən, maddi-texniki bazası gücləndirilən, savadlı müəllim kollektivlərinin çalışdığı məktəblərdə təlim-tərbiyə işinin düzgün təşkili nəticəsində nail olunub. Özünəməxsus təhsil ənənələrinə malik Şahbuz rayonunun builki məzunlarının uğurları da ürəkaçandır. Rayonun Şahbuz şəhər 1 nömrəli, Badamlı qəsəbə və Aşağı Qışlaq kənd tam orta məktəblərindən 7 məzun 600-700 intervalında bal toplayıb. Onlardan ən yüksək bal toplayanları tanıyaq.*

*Gəncliyimiz, gələcəyimiz*

## Tələbə adını qazanan şahbuzlu gənclərin uğurları ürəkaçandır

Aşağı Qışlaq kənd tam orta məktəbinin ötən təhsil ilində 13 məzunu olub, onların 11-i ali məktəblərə sənəd qəbulunda iştirak edib. Qəbul imtahanlarında 8-i ali (onlardan 2-nin balı 600-dən yuxarıdır), 3-ü isə orta ixtisas məktəblərində təhsil almaq üçün müvafiq bal toplayıblar. Məktəbin məzunu *Nailə Qoçəliyeva* qəbul imtahanlarının birinci



mərhələsində III ixtisas qrupu üzrə 612 bal əldə etsə də, daha yüksək nəticə göstərmək arzusu abituriyentlərə verilən ikinci fürsətdə özünü doğrultdu. O, 651 bal toplayaraq bütün ixtisas qrupları üzrə rayon birincisi olub, Naxçıvan Dövlət Universitetinin Xarici dil (ingilis dili müəllimliyi) ixtisasına qəbul olunub. Nailə ilə söhbətləşərkən o, bu barədə belə dedi: – İmtahan zamanı keçirdiyim həyəcanla əlaqədar ürəyimcə olan nəticə qazana bilmədim. Bu bal məni qane etmədiyi üçün may ayının 13-də keçirilən imtahanın birinci mərhələsindən iyulun 26-da keçirilən ikinci mərhələsinədək gecəni gündüzə qatıb imtahana daha ciddi hazırlaşdım. Bu isə topladığım balın artmasına səbəb oldu.

Avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikanın ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə keçirilən görüşdə iştirak edən Nailə təəssüratlarını da bizimlə bölüşərək dedi ki, mən imtahanların ikinci mərhələsində balımı xeyli artırmağımdan, istədiyim ixtisas üzrə ali məktəbə qəbul olunmağımdan çox bu tədbirdə iştirak etməyimin sevincini yaşadım. Çünki bu, mənim çoxdankı arzum idi. Elə qəbul imtahanlarında böyük uğur qazanma səbəblərimdən biri həmin görüşdə muxtar respublikamızda tikilib istifadəyə verilən müasir məktəblərdə hər bir şagirdin təhsili üçün hərtərəfli şərait yaradan, onlara xüsusi qayğı ilə yanaşan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təbrik etdiyi tələbələrdən biri olmaq istəyim idi. Arzuma çatdığım üçün özümü xoşbəxt hesab edirəm. Görüşdə Ali Məclis Sədrinin dediyi ***"Ulu öndərimizin müəyyənləşdirdiyi vəzifələr vətənə layiqincə xidmət etməyin və əsl vətəndaş kimi yetişməyin yoludur. Hər bir gənc harada təhsil almasından, yaşamasından və işləməsindən asılı olmayaraq, ölkəmiz haqqında düşünməli, öz həyat yolunu müstəqil Azərbaycanın gələcək yolu kimi seçməlidir"*** fikirləri isə hər birimizin gələcək həyatımızın yolgöstərənidir. Bəli, biz elə təhsil almalı, elə işləməliyik ki, müstəqil Azərbaycanımızın inkişafına töhfələrimizi verə biləK.

*Arzu Ələkbərli* də Aşağı Qışlaq kənd tam



orta məktəbinin məzunudur. III qrup üzrə 636 bal toplayıb. Rayonda ingilis dilini gözəl mənimsəyən şagirdlərdən idi. 2017-ci ildə Arzu ingilis dili üzrə keçirilən fənn olimpiadasında muxtar respublika birincisi olub. Onunla söhbət zamanı bu fənnə marağının necə yarandığını soruşduqda, ingilis dilini fənn müəlliminin ona sevdirdiyini bildirdi. Sonra Arzuda yaranan maraq bu dil üzərində daha çox çalışmasına, uğurlu nəticələr əldə etməsinə səbəb olub. O, digər fənlərə də eyni cür – öyrənmək istəyi ilə yanaşıb. Söhbət əsnasında Arzu müəllimlərinin "Bütün fənləri mənimsəyən əsl ziyalı ola bilər" kimi tövsiyələrini xatırladı və qazandığı uğura görə həm müəllimlərinə, həm də valideynlərinə minnətdar olduğunu dedi. Arzunu ingilis dilinə olan sonsuz marağı arzusuna çatdırdı. O, artıq Azərbaycan Dillər Universitetinin Tərcümə (ingilis dili) fakültəsinin tələbəsidir.

Rayon üzrə yüksək bal toplayan digər abituriyent Badamlı qəsəbə tam orta məktəbinin məzunu *Nurəddin İsmayılov*dur. O, II qrup üzrə birinci imtahanda 635, ikinci imtahanda isə 644 bal toplayıb arzusuna çataraq, Bakı Mühəndislik Universitetinin Biznesin idarə edilməsi ixtisasına qəbul olunub.



Nurəddin həm də orta məktəbi "Qızıl" medalla bitirib. Onun ad, soyad və ata adına nəzər saldıqda atası ilə eyni adı daşıdığı maraq yaratdığından bunun səbəbini Nurəddindən soruşduq. Bildirdi ki, hələ dünyaya gəlməmişdən əvvəl atası dünyasını dəyişib, adını ona veriblər. Ailənin tək övladıdır, anası evdar qadındır. Məktəbin direktoru Hilal Paşayev Nurəddin haqqında xoş fikirlər söyləyərək dedi ki, o, məktəbdə təhsil aldığı illərdə yüksək tərbiyəyə, eyni zamanda biliyə malik olub. Məktəbdə keçirilən bütün tədbirlərdə fəal iştirak edib, ictimaiyyətçi kimi tanınıb.

Nurəddin onda elmlərə marağı müəllimlərinin tədris etdikləri fənləri sevdirməklə yaratdıqlarını, məktəb direktorunun dərslərin gedişinə mütəmadi nəzarət etdiyini dedi, qazandığı nailiyyətə görə müəllim kollektivinə minnətdarlığını bildirdi.

Yüksək bal toplayan gənclərlə görüşü Nurəddin həyatının ən xoş günü hesab edərək deyir: – Qürur duyuruq ki, gənclərimizə dövlətimiz tərəfindən böyük qayğı göstərilir. Bu görüş gözəl təəssüratları ilə mənim yaddaşıma həkk olundu. Ona görə ki, müstəqil həyata addımımın ilk xeyir-duasını cənab Sədrdən aldım. Buna görə özümü xoşbəxt hesab edirəm.

*Yusif İsayev* də Badamlı qəsəbə tam orta



məktəbinin məzunudur. Arzusuna çatmaq, tələbə adını qazanmaq, qaliblər sırasında olmaq üçün yuxusuz gecələr keçirən Yusif qəbul imtahanlarını uğurla verib, üçüncü qrup üzrə 630 bal toplayıb. Onun dediklərindən: – Arzusunda olduğum tələbə adını qazanmaq üçün yorulmaq bilmədən, böyük həvəslə günlərimi kitab oxumaqla, müəllimlərimin tapşırıqlarını yerinə yetirməklə, əlavə vəsaitlərdən istifadə edib, çətin suallara cavab tapmaqla keçirmişəm. Mən Azərbaycan Dillər Universitetinin Tərcümə (ingilis dili) fakültəsində təhsil almaq arzuma çatdım. Gələcəkdə ingilis dilindən başqa daha 3 dil də öyrənməyi qarşıma məqsəd qoymuşam. Çəkdiyi zəhmətin şirinliyini dadan Yusif onu da bildirdi ki, insan böyüklü-kiçikli bütün istəklərini həyata keçirmək üçün hökmən zəhmət çəkib, əziyyətə qatlaşmalıdır. Arzuların gerçəkləşməsində bundan başqa yol yoxdur.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəb rayonda özünəməxsus təhsil ənənələri olan tədris müəssisələrindən biridir. Məktəbin onlarla məzunu ölkəmizdə elmi potensialları ilə seçilən qabaqcıl ziyalılardandır. Hər tədris ilində uğurlu, ali məktəblərə qəbulu ilə seçilən məktəbin builki nəticələri də ürəkaçandır. Təhsil müəssisəsinin direktoru Məhərrəm İsmayılovla söhbətimiz zamanı bu məktəb haqqında olan fikirlərimizi bir daha təsdiqlədik. O dedi: – Ötən tədris ilində məktəbin 24 məzunu olub. 19 nəfər ali məktəblərə qəbul imtahanlarında uğurlu nəticələr əldə edib, onlardan 6-sı 500-700 intervalında bal toplayıb. Bütün bunlar isə bizə göstərilən dövlət qayğısının bəhrələridir.

Məktəbin ən yüksək bal toplayan məzunu *Aysu Hacıyeva*dır. III qrup üzrə 620 bal toplayan Aysu ali məktəbə qəbul olmaq üçün illərlə zəhmətə qatlaşıb, oxuyub, öyrənib. Müəllimləri ilə dost olub. Bilmədiyini öyrənib, onların hər bir tövsiyə və tapşırığına



ciddi əməl edib. Çalışıb ki, məktəbi uğurla başa vurub müəllim və valideynlərinin etimadını doğrulda bilsin.

Çox sevdiyi ingilis dilini yetərincə öyrənmək, ona mükəmməl yiyələnmək üçün böyük çətinliklərlə qarşılaşıb. O, biliklərini daha da genişləndirmək üçün Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində oxumağı arzu edib. Məqsədinə çatması Aysunun hədsiz sevincinə səbəb olub. Sevinc zəhmətin övladıdır, – deyiblər. O da çəkdiyi zəhmətin bəxş etdiyi sevinci dadıb, tələbə adına layiq görülüb. Aysu təəssüratlarını bizimlə belə bölüşdü: – Həmişə tələbə adını qazanmaqdan da böyük bir arzum olub: Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək bal toplayan tələbələrlə görüşündə iştirak etmək. Mən hər il bu görüşü televiziya vasitəsilə izləyib həsəd hissi keçirmişəm. Bu gün özümü xoşbəxt hesab edirəm ki, mən də növbəti belə bir görüşün iştirakçısı oldum, muxtar respublikamızın inkişafında xüsusi dəst-xətti olan cənab Sədrimizlə görüşdüm. Bu görüş, bizə edilən tövsiyələr hər zaman həyatımızda mayak olacaq.

Gələcək cəmiyyətimiz bugünkü gənclərlə bağlıdır. Gəncliyin isə formalaşdığı ilk ünvan məktəbdir. Dövlətimizin qayğısı ilə ən müasir avadanlıqlarla təchiz olunan məktəblərimiz isə gənclərin həm tədrisdə, həm də təlim və tərbiyədə uğurlar qazanmasına imkan verib. Tələbə adına layiq görülənlər məhz buna görə də, ilk növbədə, dövlətimizə minnətdardırlar.

**Mətanət MƏMMƏDOVA**

## Təbii şəfa mənbələri muxtar respublikanın müalicəvi turizm bölgəsi kimi tanıdılmasında mühüm rol oynayır

Müasir dünyada turizm inkişaf istiqamətlərinə və gəlirliyinə görə ən çox diqqəti cəlb edən sahələrdəndir. Mövcud potensialın qiymətləndirilməsi və istifadəsi əsasında daha çox turistin cəlb edilməsi turizmin əsas məqsədlərindəndir. Buna görə də müxtəlif turizm resurslarından istifadə hazırda bütün ölkələr üçün mühüm əhəmiyyət kəsb edir. Son illərdə dünyada müalicə məqsədli turizm səyahətlərinin artması bu sahənin inkişafına da yeni imkanlar açıb. Çünki insanlar üçün ən böyük nemət olan sağlamlığın qorunması gündən-günə daha da aktuallaşır. Ümumdünya Turizm Təşkilatının analoji diaraq hər il yayımladığı məlumatlarda da bu turizm növünün xidmətlərindən yararlananların sayının artdığı bildirilir. Hazırda bütün dünyada müalicə-sağlamlıq turizminin payı ümumi turizm dövriyyəsinin 14 faizinə çatıb.

Qeyd etmək lazımdır ki, müalicə turizmi resursları hər turizm bölgəsi üçün xas deyil. Burada təbii amillər böyük rol oynadığından bu turizm növünü hər yerdə inkişaf etdirmək də mümkün deyil. Lakin lazımi potensiala malik, eyni zamanda bu potensialdan səmərəli istifadə etməyi bacaran ölkələr və yaxud bölgələr üçün müalicə turizmi bu gün ən çox diqqət mərkəzində olan turizm növüdür. Bu baxımdan Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası zəngin müalicə turizmi imkanları ilə seçilir.

Müalicə turizmində əsas obyekt müxtəlif şəfa mənbələri hesab olunur. Hazırda muxtar respublikamızın ərazisində müxtəlif kimyəvi tərkibə



və temperatura malik 200-dən çox mineral su bulağı var. Bu mineral bulaqlardan təbii şəfa mənbəyi kimi istifadə olunması hələ qədim zamanlardan insanlara məlumdur. Əhali müalicə məqsədilə hər zaman bu mənbələrdən istifadə edib. Məsələn, Culfa rayonu ərazisində yerləşən Darıdağ suyu dəri, sümük-oynaq, əzələ sistemi xəstəliklərinin müalicəsində geniş istifadə olunur. 1978-ci ildən fəaliyyətə başlayan Darıdağ Arsenli Su Müalicəxanası 2005-ci ildə müasir tələblərə uyğun yenidən qurularaq istifadəyə verilib. Burada xəstələrin müayinəsi, müalicəsi və istirahəti üçün hərtərəfli şərait yaradılıb. 2017-ci ilin oktyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Darıdağ Arsenli Su Müalicəxanasının yenidən təşkil edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən həmin müalicəxanaya publik hüquqi şəxs statusu verilib. Bu da, şübhəsiz, əhalinin belə bir vacib kurort-sağlamlıq müəssisəsinin xid-



mətlərindən daha yaxşı istifadə etməsi üçün geniş imkanlar açır.

Və yaxud götürək muxtar respublikamızın ən böyük müalicəvi turizm obyektlərindən olan Duzdağ Fizioterapiya Mərkəzini. 1979-cu ildən fəaliyyət göstərən bu müalicə mərkəzi 2008-ci ildə yenidən qurulub, tibbi personal üçün lazımi iş şəraiti yaradılıb, pasiyentlərin qəbulu və müalicəsi üçün yeni imkanlar açılıb. Mərkəzdə bronxial-astma və ağciyər-bronx sisteminin digər qeyri-spesifik xəstəliklərindən əziyyət çəkən insanlar müalicə olunurlar. Yaradılmış şəraitin nəticəsidir ki, hər il burada ölkəmizin digər bölgələri ilə yanaşı, xarici ölkələrdən də olmaqla, ümumilikdə, 3500-4000 arası pasiyent müalicə alır. Duzdağda müalicə olunmaq istəyən insanların artan tələbatının ödənilməsi üçün 2017-ci ilin dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı Sərəncamla Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Duzdağ Fizioterapiya Mərkəzinə də publik hüquqi şəxs statusu verilib. Bu statusla mərkəz daha səmərəli fəaliyyət göstərir.

Onu da deyək ki, bu gün muxtar respublikamızda Nəhəcir, Badamlı, Sirab, Əshabi-Kəhf, Cəhri, Qahab, Dəstə və



digər yataqlar müalicəvi xüsusiyyətləri ilə fərqlənir. Belə müalicə qaynaqlarından biri də Naxçıvan-Sədərək magistralının birinci kilometrində yerləşən Şorsudur. Şorsu palçığı son dərəcə balneoloji hidromineral ehtiyatdır. Tərkibi maqnezium, natrium, kalsium, dəmir oksidlidir. Bu palçığın müalicə məqsədilə istifadə olunması çoxdan məlumdur. Ancaq əvvəllər Şorsu palçığından istifadə kortəbii xarakter daşıyıb. İnsan orqanizminə müalicəvi təsir edən bu palçıq növü fizioterapiyanın bir metodu kimi periferik sinir sisteminin, dayaq-hərəkət sisteminin, damar, ginekoloji, bir sıra dəri xəstəliklərinin və yanıqlardan sonrakı fəsadların müalicəsində istifadə olunur. Əsasən, oynaq nahiyələrinə sürtülərək müalicə aparılır.

Bu yaxınlarda AMEA Naxçıvan Bölməsinin əməkdaşları tərəfindən müalicəvi əhəmiyyətli Şorsu palçığı laboratoriya şəraitində işləndikdən sonra həm palçıq, həm də quru toz formasında qablaşdırılıb. Məqsəd əczaxanalarda satışını təşkil edərək bu təbii müalicə vasitəsinin hər kəs üçün əlçatan olmasını təmin etməkdir. Şorsu palçığı bölmənin müvafiq laboratoriyasında gigiyenik qaydada, müxtəlif xəstəliklərin müalicəsində istifadə edilməsi üçün xüsusi təcrübələrlə yoxlanıldıqdan sonra qablaşdırılır. O, 17 adda – revmatizm, revmatoid artrit, fəqərə osteoxondrozu, deformasiyaedici, miozit, bursit, insult qalığı, radikulit, nefrit, nevralgiya, prostatit və digər xəstəliklərin müalicəsində effektli təsirə malikdir.

*Göründüyü kimi, muxtar respublikamızın təbii şəfa mənbələri bir çox xəstəliklərin müalicəsində əvəzsiz rol oynayır. Bu isə öz növbəsində, muxtar respublikanın müalicəvi turizm bölgəsi kimi tanıdılmasında mühüm əhəmiyyət kəsb edir.*

**Səbuhi HƏSƏNOV**

## Maarifləndirici praktik məşğələ keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı”nın icrasına uyğun olaraq muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin reabilitasiyası və cəmiyyətə inteqrasiyası diqqət mərkəzində saxlanılır, bu istiqamətdə tədbirlər davam etdirilir.

Həmin tədbirlərin davamı olaraq Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin mütəxəssislərinin iştirakı ilə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində “Sağlamlıq imkanları məhdud uşaqların sosial bacarıqlarının inkişaf etdirilməsi” mövzusunda tərbiyəçilərin və uşaqların iştirakı ilə maarifləndirici praktik məşğələ keçirilib. Müəllim-defektoloqlar uşaqlarla fərdi qaydada reabilitasiyayönümlü məşğələ aparıb və bu sahədə çalışan mütəxəssislərə və valideynlərə uşaqların təlim-tərbiyəsinin təşkili və onlarla ünsiyyətqurma bacarıqlarının inkişaf etdirilməsinə dair məsləhət və tövsiyələr veriblər.

Qeyd edək ki, belə tədbirlərin keçirilməsi mütəmadi olaraq davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## “Xəzinə axtarışı” intellektual oyunu maraqla qarşılanıb



“Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin təşkilatçılığı ilə gənclər arasında yeni – “Xəzinə axtarışı” intellektual oyunu keçirilib.

Yarışdan öncə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli qeyd edib ki, oyunun keçirilməsində məqsəd gənclərin intellektual oyunlara cəlb olunması, onların intellektual səviyyəsinin, dünyagörüşünün, zehni inkişafının stimullaşdırılması, asudə vaxtlarının səmərəli təşkil edilməsidir.

Oyunda yaşı 18-dən 29-dək olan gənclərdən ibarət 10 komanda mübarizə aparıb.

Yekun nəticəyə əsasən “Şən oğlanlar” komandası qalib adını qazanıb. Digər iki pillədə “Zirvə” və “Diplomat” komandaları qərarlaşıblar.

Sonda qalib komandalar və komanda üzvləri nazirlik tərəfindən diplom və fəxri fərmanlarla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

***Hər il sentyabr ayı yurdumuza qədəm qoyduğu andan yeni tədris ilinə hazırlıq işləri görülər. Valideynlər övladları ilə birgə mağazalara üz tutar, onlara məktəbli geyimləri, dərs ləvazimatları alarlar. Məktəbə ilk dəfə gedəcək uşaqlar və onların valideynləri isə bu prosesi daha böyük həyəcanla yaşayarlar. Vaxt, vədə yetişər. Bilik Günü səhər erkəndən oyanan valideynlər övladlarını da ayağa qaldırar, onları səliqəli şəkildə geyindirər, əlindən yapışıb məktəbə tələsərlər.***

# Uşaqların məktəbə psixoloji hazırlığı vacib məsələdir



Həmin gün yolboyu uşaqların şən, şaqraq gülüşlərini, valideynlərin sevinc səslərini eşidən zaman öz uşaqlıq çağları yadına düşər. Sevincini gizlədə bilmərsən... Məktəbin həyətində əsl toy-bayram ab-havası hiss olunar. Direktor məktəblilərə xoş gəldin edər, uşaqlara yeni tədris ilində uğurlar arzulayar. Daha sonra ilk zəng çalınar, balacalar sinfə tələsər, ibtidai sinif müəllimi ilə tanışlıq başlayar. Məktəbə yenicə qədəm qoyan uşağın ilk dərs günü bu cür maraqlı anlarla yaddaşına yazılar və ömürboyu şirin bir xatirətək hafizəsində yaşayar.

Xatırlatmaq yerinə düşər ki, illər öncə övladını birinci sinfə aparan valideyn bir sıra problemlərlə üzləşərdi. Bu yaşda uşaqların əksəriyyətinin məktəb mühitinə alışmağı çətin olardı. Bu zaman isə valideyn günahı uşaqda axtarar, filankəsin övladı məktəbə can atır, bizim uşaqsa evdən ayrılmaq istəmir, – deyə hey şikayətlənərdi: – Gözümdən qırağa qoymamışam. Elə evdə say saymağı, hərf oxumağı, yazı yazmağı öyrətmişəm. Hətta çoxlu şeirlər, nağıllar da bilir. Ancaq indi deyirik ki, məktəbə gedəcəksən, deyir evdə qalmaq istəyirəm. Heç bilmirəm bu uşaqla necə edim?

Əvvəllər qohum-əqrəba evində qonaq olarkən, ictimai yerlərə yolumuz düşdüyündə valideynlərin dilindən bu cür söhbətləri tez-tez eşidirdik. Lakin son illərdə ölkəmizdə, eləcə də muxtar respublikamızda uşaqların məktəb təliminə hazırlığı ilə bağlı atılan mühüm addımlar sayəsində balacalarda məktəbə, kitaba qarşı məhəbbət hissi formalaşıb. Bu gün onlar nəinki məktəbdən çəkinmir, hətta erkən yaşdan müxtəlif fənlərə maraq göstərirlər. Sevindirici haldır ki, indi ən kiçikyaşlı uşaqlar üçün də əyani vəsaitlər nəşr olunub mağazalarda satışa çıxarılır. Bağçalarda keçirilən məşğələlərdə belə vəsaitlərdən geniş istifadə edilir. Bununla uşaqda erkən yaşdan diqqətcillik, hazırcavablılıq, dərketmə kimi bacarıqlar formalaşır. Uşaq yaxşını pisdən ayırd etməyi, həmyaşıdları ilə ünsiyyət qurmağı, böyüklərlə düzgün rəftarı öyrənir.

Naxçıvan şəhərindəki 12 nömrəli məktəbin ibtidai sinif müəllimi, ömrünün 30 ilini bu məsuliyyətli peşəyə həsr edən, Azərbaycan Respublikasının Əməkdar müəllimi Azadə Məmmədova deyir ki, əvvəllər valideyn uşağı ya evdən uzağa buraxmır, ya da bağçaya, sadəcə, vaxt keçirmək məqsədilə aparırdı. Üstəlik, məktəbəqədər tərbiyə müəssisələrində də uşaqların məktəb təliminə hazırlığı ürəkaçan deyildi. Bu da gələcəkdə həmin uşağın keçilən dərsləri daha gec qavramasına səbəb olurdu. Bütün bunlar, təbii ki, müəllimin də işini xeyli çətinləşdirir, tədris prosesini ləngidirdi. Ancaq son illərdə bu istiqamətdə ciddi tədbirlərin görülməsi ilə vəziyyət köklü surətdə dəyişib. Bağçalar üçün müasir binaların tikilərək istifadəyə verilməsi, onların ən yeni avadanlıqlarla təmin olunması, bacarıqlı kadrların işə cəlbi fidanlarımıza göstərilən yüksək qayğının ifadəsidir. Nəticədə, valideynlər də artıq övladlarını bağçaya aparmağa daha çox can atırlar. Bundan əlavə, iki ildir ki, təhsil ocaqlarında məktəbəhazırlıq qrupları yaradılıb. Bu gün istər bağçalarda, istərsə də məktəblərdə təşkil olunan məşğələlər vasitəsilə balacaların düşüncəsi, məntiqi təfəkkürü, dünyagörüşü inkişaf edir. Məsələn, uşaq kağızı rənglədikcə qələm tutmağı öyrənir, ayrı-ayrı parçaları bir-birinə birləşdirəndə diqqəti formalaşır, şəkillər arasındakı fərqi ayırd edərkən düşüncəsi inkişaf edir. Bütün bunlar həm də balacaya görülən hər işdə səbirli, təmkinli olmağı aşılayır. Bundan başqa, məşğələlərdə iştirak edən uşaq həmyaşıdları ilə, böyüklərlə mütəmadi ünsiyyətdə olur ki, bu da onu həm də psixoloji cəhətdən məktəbəhazır vəziyyətə gətirir. Nəticədə, birinci sinfə qədəm qoyan həmin balaca məktəbə getməkdən, uşaqlarla ünsiyyətdən çəkinmir, verilən tapşırıqları da digərlərinə nisbətən daha tez qavrayır. Beləcə həm valideynin, həm də müəllimin işi xeyli asanlaşır.

Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, psixoloq Çapay Quliyev deyir ki, ilk dəfə məktəbə qədəm qoyacaq uşağın psixoloji-emosional hazırlığı mühüm məsələdir. Muxtar respublikamızda təhsil prosesində məktəbəhazırlıq mərhələsinin həyata keçirilməsi nəticəsində balacaların təhsil ocağına adaptasiyası illər öncəsinə nisbətən xeyli asanlaşıb. Lakin bəzən uşaqların məktəbəhazırlıq qruplarında iştirak etməsinə baxmayaraq, dərs prosesinə uyğunlaşa bilmədiyinin də şahidi oluruq. Bunun başvermə səbəbləri müxtəlif ola bilər. Uşağın psixi inkişafında olan ləngimə (kənardan bir o qədər də hiss olunmaya bilər), onda öyrənmə qabiliyyəti ilə bağlı yaranan problemlər, diqqət çatışmazlığının olması, yəni diqqətin yayınması kimi hallar uşağın ya fiziki inkişafı, ya da düzgün tərbiyə olunmaması ilə bağlıdır. Digər səbəb isə bəzi valideynlərin təhsilə münasibətinin zəif olması və uşaqla bu haqda düzgün söhbətin aparılmaması, onun təhsilində müəllim və valideyn əlaqələrinin düzgün qurulmaması, müəllimlərin təlim prosesinin mərhələli keçidini diqqətdə saxlamadan, yəni uşaqların yaş və fərdi xüsusiyyətlərini nəzərə almadan təlim prosesini qurmağa çalışmaları və sair kimi hallardır. İstər valideynlərin, istərsə də müəllimlərin hər hansı uşaqda məktəbə adaptasiyanın zəif olduğunu gördükdə dərhal psixoloqlara müraciət etmələri məsləhətdir.

Çapay Quliyevin fikrincə, uşağın məktəbə psixoloji cəhətdən hazır olmasında valideynlərin üzərinə çox mühüm vəzifələr düşür. Belə ki, onlar ilk olaraq uşağa məktəbdəki fəaliyyətin evdəki və ya bağçadakından fərqli olduğunu izah etməlidirlər. Məktəbdə dərs vaxtı parta arxasında düzgün oturmaq, həmyaşıdı ilə danışmadan diqqətlə müəllimə qulaq asmaq və onun verdiyi tapşırıqları yerinə yetirmək barədə uşaqla mütəmadi söhbətlər aparılmalıdır. Bütün bu məlumatları uşağa elə formada çatdırmaq lazımdır ki, onda dərs prosesinə həvəs və maraq oyansın, düşüncəsində məktəbə getmək arzusu yaransın.

Söhbətlərdən belə aydın oldu ki, məktəbə gedəcək uşağın psixoloji cəhətdən hazırlıqlı olması dərs prosesinə təsir edən mühüm amildir. Məktəb təliminə hazırlıq həm evdə, həm bağçada, həm də məktəbdə ardıcıl şəkildə aparılmalıdır. Əgər hər kəs bu işdə üzərinə düşən məsuliyyəti dərindən dərk edib məsələyə həssas yanaşsa, gələcəyimiz olan uşaqlar da məktəbə çəkinmədən, tam hazır vəziyyətdə gedərlər.

✍ **Nail ƏSGƏROV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu fakültələrdə boş olan aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

***I. Fakültə dekanı vəzifəsi üzrə:***

*- Pedaqoji fakültənin dekanı*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən göstərilən vəzifəni tutmaq üçün ali təhsil müəssisəsində kadr hazırlığı profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcəyə və ən azı 5 il elmi-pedaqoji təcrübəyə malik şəxslər müsabiqədə iştirak edə bilərlər.

***II. Kafedralardakı vəzifələr üzrə:***

*1. Pedaqogika və psixologiya:*
*- Müəllim – 1 yer (tam ştat)*
*2. Dillər və ədəbiyyat:*
*- Professor – 1 yer (tam ştat)*
*- Müəllim – 1 yer (tam ştat)*
*3. Ali riyaziyyat və informatika:*
*- Professor – 1 yer (tam ştat)*

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Mövcud əsasnaməyə görə müsabiqədə iştirak etmək istəyənlər sənədlərini rektorun adına ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, Naxçıvan Müəllimlər İnstitutu***
***Telefon: 545-32-02***
***Rektorluq***

## Milli Musiqi Gününə həsr olunmuş konsertlər davam edir



*Dünən Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində konserti olub.*

Orkestr dahi Üzeyir Hacıbəyovun milli musiqimizin incilərindən olan “Koroğlu” operasından möhtəşəm “Uvertüra”nı ifa edib. Bu ölməz musiqidən sonra xor kollektivinin ifasında böyük bəstəkarımız Qara Qarayevin “Xoşbəxtlik nəğməsi” səslənib. Onu da qeyd edək ki, kollektivin xormeysteri Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Mahirə Əsgərovadır.

Gənc müğənni İlkin Abdullayev görkəmli bəstəkar Süleyman Ələsgərovun Şıxəli Qurbanovun sözlərinə yazdığı “Baharın nəğməsi” mahnısını ifa edib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Azər Cəfərli müasir bəstəkarlarımızdan Eldar Mansurovun “Bahar oğlu” mahnısını təqdim etdikdən sonra Azərbaycan Respublikasının Əməkdar artisti Gülyanaq Fərzəliyeva Üzeyir Hacıbəyovun “Firuzə” operasından Firuzənin ariyasını səsləndirib. Gənc müğənni Rahim Əsgərzadənin Müslüm Maqomayevin “Şah İsmayıl” operasından Aslan şahın, “Koroğlu” operasından Həsən xanın ariyalarını ifa etməsi alqışlarla qarşılanıb.

Kamera orkestrinin Qara Qarayevin ölməz “Yeddi gözəl” baletindən səsləndirdiyi “Vals” konsertə rəngarənglik qatıb.

Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Mübariz Əsgərovun ifa etdikləri Müslüm Maqomayevin “Odlar yurdu” mahnısı, “Qalalı” xalq mahnısı, Oktay Kazımovun “Bayram mahnısı” tamaşaçılarda xoş ovqat yaradıb.

Konsert böyük bəstəkarımızın “Koroğlu” operasından “Final”ın səslənməsi ilə başa çatıb.

Orkestrin bədii rəhbər və dirijoru Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundovdur.

## Növbəti seminar-treninq

Cəlil Məmmədquluzadənin ev-muzeyində muzey bələdçiləri üçün növbəti seminar-treninq keçirilib.

Tədbirdə Mədəniyyət Nazirliyinin baş məsləhətçisi Qumral Əsədova bildirib ki, muzey bələdçisi muzeyi ziyarətə gələn insanlarla davranış qaydalarına ciddi əməl etməli, özünün geyim tərzi, intellektual dünyagörüşü ilə bura gələnlərdə xoş təəssürat yaratmalıdır. Muzey bələdçiləri ziyarətçilərin suallarını diqqətlə dinləyib elmi əsaslarla və tarixi faktlarla cavablandırmağı bacarmalıdırlar. Bütün bu sadalanan vəzifələrin öhdəsindən layiqincə gəlinməsində təcrübə mübadiləsinə imkan verən seminar-treninqlərin keçirilməsi böyük əhəmiyyət kəsb edir.

Sonra muzeyin ekspozisiyasına baxış olub, tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Əli RZAYEV**

***İtmişdir***

Əkbərov Nazim İbadulla oğlunun adına olan 0200803132 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

***Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail: *serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**

***Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır***

***Nömrəyə məsul:* Nail Əsgərov**

***Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.***

**Tiraj: 1490. Sifariş № 651**